# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI

## Beynəlxalq Audit Standartları və yeni dövrün çağırışları nəzərə alınmaqla audit qanunvericiliyinin təkmilləşdirilməsinə dair
## H E S A B A T

***İcraçılar:***

*Auditin hüquqi tənzimlənməsi və*
*dövlət orqanları ilə iş idarəsinin rəisi* *Elnur İbrahimov*

*Auditin hüquqi tənzimlənməsi və*
*dövlət orqanları ilə iş idarəsinin rəis müavini* *Bəhruzə Qasımova*

**Bakı - 2023-cü il**

## Beynəlxalq Audit Standartları və yeni dövrün çağırışları nəzərə alınmaqla audit qanunvericiliyinin təkmilləşdirilməsinə dair
## H E S A B A T

### I. Giriş

Bu "Hesabat" Azərbaycan Respublikası Auditorlar Palatası sədrinin 2023-cü il 16 oktyabr tarixli 1/21 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Auditorlar Palatasının Şurasında 2023-cü ilin noyabr-dekabr aylarında müzakirə ediləcək məsələlərin qrafiki"nin 4-cü və Azərbaycan Respublikası Auditorlar Palatasının 2023-cü il üzrə İş Planının 1.1.1-ci bəndlərinin icra edilməsi məqsədilə hazırlanmışdır.

### II. Audit və digər qanunvericiliyə dair verilmiş təkliflər

Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti tərəfindən hazırlanmış "Yüksək riskli zonalara münasibətdə tətbiq edilə bilən məhdudiyyətlərin və xüsusi tələblərin siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı layihəsinə dair irad və təkliflərin hazırlanaraq 2023-cü il 16 fevral tarixində Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatına göndərilməsi təmin edilmişdir.

"Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı layihəsinə dair irad və təkliflərin hazırlanaraq 2023-cü il 15 mart tarixində Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatına göndərilməsi təmin edilmişdir.

"Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 215 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi və "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2009-cu il 23 fevral tarixli 66 nömrəli Fərmanının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 yanvar tarixli 2006 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə" Nazirlər Kabinetinin 2023-cü il 20 fevral tarixli 217s nömrəli Sərəncamının icrası ilə Auditorlar Palatasına aid Nazirlər Kabinetinin qərarlarının, digər normativ hüquqi aktlarının və normativ xarakterli aktlarının sözügedən Fərmana uyğunlaşmasına dair irad və təkliflərin hazırlanaraq

2023-cü il 17 mart tarixində Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Qanunvericilik baş idarəsinə göndərilməsi təmin edilmişdir.

“Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 783-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” 2016-cı il 15 fevral tarixli 795 nömrəli, “İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın təsdiq edilməsi barədə” 2017-ci il 23 fevral tarixli 1256 nömrəli və “Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın təsdiq edilməsi barədə” 2017-ci il 3 may tarixli 1361 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 yanvar tarixli 2009 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 fevral tarixli 218s nömrəli Sərəncamının 1-ci hissəsinin icrası ilə bağlı Auditorlar Palatasına aid Nazirlər Kabinetinin qərarlarının, digər normativ hüquqi aktlarının və normativ xarakterli aktlarının sözügedən Qanuna uyğunlaşmasına dair irad və təkliflərin hazırlanaraq 2023-cü il 27 mart tarixində Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Qanunvericilik baş idarəsinə göndərilməsi təmin edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üzrə Milli Fəaliyyət Planı”nda nəzərdə tutulmuş tədbirlərin icra edilməsi məqsədilə Azərbaycan Respublikası Auditorlar Palatasının “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-cü il üzrə İş Planı” hazırlanmış və Palata sədrinin 2023-cü il 28 mart tarixli 1/10 nömrəli sərəncamı ilə təsdiq edilmişdir.

““Hədəfli maliyyə sanksiyaları haqqında” Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 782-VIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 yanvar tarixli 2008 nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 fevral tarixli 216s nömrəli Sərəncamının 1.1 və 1.2-ci bəndlərinin icrası ilə bağlı Auditorlar Palatasına aid Azərbaycan Respublikası qanunlarının, ölkə Prezidentinin aktlarının və Nazirlər Kabinetinin qərarlarının sözügedən Qanuna uyğunlaşdırılmasına dair irad və təkliflərin hazırlanaraq

2023-cü il 31 mart tarixində Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Qanunvericilik baş idarəsinə göndərilməsi təmin edilmişdir.

““Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 784-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2000-ci il 22 yanvar tarixli 265 nömrəli və “Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə” 2000-ci il 25 avqust tarixli 387 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 yanvar tarixli 2010 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 fevral tarixli 220s nömrəli Sərəncamının 1-ci bəndinin icrası ilə bağlı Auditorlar Palatasına aid normativ hüquqi aktlarının və normativ xarakterli aktların sözügedən Qanuna uyğunlaşdırılmasına dair irad və təkliflərin hazırlanaraq 2023-cü il 31 mart tarixində Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Qanunvericilik baş idarəsinə göndərilməsi təmin edilmişdir.

“Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 781-VIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 yanvar tarixli 2007 nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 7 mart tarixli 241s nömrəli Sərəncamının 1.1-ci bəndinin icrası ilə bağlı hazırlanmış qanun, fərman və sərəncam layihələrinə edilmiş dəyişikliklərə dair irad və təkliflərin hazırlanaraq 2023-cü il 07 aprel tarixində Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Qanunvericilik baş idarəsinə göndərilməsi təmin edilmişdir.

Azərbaycan Respublikası Baş Prokurorluğu tərəfindən hazırlanmış “Maraqlar toqquşması haqqında” Azərbaycan Respublikasının Qanunu və “Maraqlar toqquşması haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin Fərmanı layihələrinə dair irad və təkliflərin hazırlanaraq 2023-cü il 19 aprel tarixində Azərbaycan Respublikası Baş Prokurorluğuna göndərilməsi təmin edilmişdir.

“Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının 2022-ci il 30 dekabr tarixli 781-VIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 31 yanvar tarixli 2007 nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında” Nazirlər Kabinetinin 2023-cü il 7 mart tarixli 241s nömrəli Sərəncamının 1.1 və 1.2-ci bəndlərinin icrası ilə bağlı hazırlanmış qanun və qərar layihələrinə dair irad və təkliflərin hazırlanaraq 2023-cü il 03 may tarixində Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Qanunvericilik baş idarəsinə göndərilməsi təmin edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 28 avqust tarixli 719s nömrəli “Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 avqust tarixli 2305 nömrəli Fərmanının icrasının təmin edilməsi haqqında” Sərəncamının icrası ilə bağlı Auditorlar Palatasına aid normativ hüquqi aktların və normativ xarakterli aktların sözügedən Sərəncama uyğunlaşmasına dair irad və təkliflərin hazırlanaraq 2023-cü il 05 sentyabr tarixində Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Qanunvericilik baş idarəsinə göndərilməsi təmin edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 22 avqust tarixli 681s nömrəli “Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 965-VIQD nömrəli Qanununun icrasının təmin edilməsi barədə” Sərəncamının icrası ilə bağlı Auditorlar Palatasına aid normativ hüquqi aktların və normativ xarakterli aktların sözügedən Sərəncama uyğunlaşmasına dair irad və təkliflərin hazırlanaraq 2023-cü il 06 sentyabr tarixində Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Qanunvericilik baş idarəsinə göndərilməsi təmin edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 22 avqust tarixli 684s nömrəli “Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 958-VIQD nömrəli Qanununun icrasının təmin edilməsi haqqında” Sərəncamının icrası ilə bağlı Auditorlar Palatasına aid normativ hüquqi aktların və normativ xarakterli aktların sözügedən Sərəncama uyğunlaşmasına dair irad və təkliflərin hazırlanaraq 2023-cü il 06 sentyabr tarixində Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Qanunvericilik baş idarəsinə göndərilməsi təmin edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 22 avqust tarixli 694s nömrəli “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2023-cü il 6 iyul tarixli 959-VIQD nömrəli Qanununun icrasının təmin edilməsi haqqında” Sərəncamının icrası ilə bağlı Auditorlar Palatasının sözügedən Sərəncama uyğunlaşmasına dair irad və təkliflərin hazırlanaraq 2023-cü il 19 sentyabr tarixində Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Qanunvericilik baş idarəsinə göndərilməsi təmin edilmişdir.

Azərbaycan Respublikasının Auditorlar Palatası sədrinin “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə Auditorlar Palatasının məsuliyyətinin gücləndirilməsi və auditorların öhdəliklərinin yerinə yetirilməsi barədə” 2023-cü il 08 iyun tarixli 24 №-li əmrinin 12-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Auditorlar Palatasının “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2024-cü il üzrə İş Planı” hazırlanmış və Palata sədrinin 2023-cü il 19 sentyabr tarixli 1/19 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir

“Auditor xidməti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanun layihəsinə dair irad və təkliflərin hazırlanaraq 2023-cü il 03 oktyabr tarixində Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə göndərilməsi təmin edilmişdir.

Azərbaycan Qiymətləndiricilər Cəmiyyəti tərəfində təqdim edilmiş “Azərbaycan Respublikasının Auditorlar Palatası və Azərbaycan Qiymətləndiricilər Cəmiyyəti arasında Əməkdaşlıq Müqaviləsi”nin layihəsinə baxılmış, son dəyişikliklər nəzərə alınmaqla yeni layihə hazırlanaraq 2023-cü il 25 oktyabr tarixində Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinə göndərilməsi təmin edilmişdir.

## III. Audit və digər qanunvericiliyə dair hazırlanmış Şərhlər

Azərbaycan Respublikası Auditorlar Palatasının 2023-cü il üzrə İş Planının 1.1.2-ci “Azərbaycan Respublikasının qanunvericiliyində edilən dəyişikliklər barədə şərhlərin hazırlanması və auditorun şəxsi kabineti sistemində və Auditorlar Palatasının saytında yerləşdirilməsi” bəndinin icrasını təmin etmək məqsədilə aşağıdakı qanunvericiliklər bağlı şərhlər hazırlanmış və Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilmişdir:

1. “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” 2022-ci il 30 dekabr tarixli Azərbaycan Respublikasının Qanunu barədə şərh;

2. Vergi Məcəlləsinə edilmiş dəyişikliklər barədə şərh;

3. “Hədəfli maliyyə sanksiyaları haqqında” 2022-ci il 30 dekabr tarixli Azərbaycan Respublikasının Qanunu barədə şərh;

4. “Öhdəlik daşıyan şəxslərin daxili nəzarət proqramının cavab verməli olduğu minimum Tələblər”ə dair şərh;

5. “Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanununa dair Şərh;

6. “Qiymətli kağızlar bazarı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanununa dair şərh;

7. “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanununa dair şərh;

8. “Sığorta fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanununa dair şərh;

9. “Kredit büroları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanununa dair şərh;

10. “Valyuta tənzimi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanununa dair şərh;

11. Siyasi partiyanın maliyyə hesabatının forması, məzmunu və təqdim edilməsi Qaydasına dair şərh;

12. “Nəzarət olunan xarici müəssisə haqqında arayışın rezident fiziki və hüquqi şəxslər tərəfindən vergi orqanına təqdim edilmə forması və qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Kollegiyasının 2022-ci il 19 aprel tarixli 8 nömrəli Qərarında dəyişikliklər barədə şərh;

13. “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanununa dair şərh;

14. Problemli aktivlərin (əmlakların) və onlar üzrə tələb hüquqlarının satılması, idarəetməyə verilməsi və iştirak payı kimi qoyulması üzrə Müsabiqə Komissiyasının fəaliyyət Qaydasına dair şərh;

15. “Bank olmayan kredit təşkilatları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanununa dair şərh;

16. “Banklar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanununa dair şərh;

17. Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında Azərbaycan Respublikasının Qanununa dair şərh;

18. “Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanununa dair şərh.

## IV. Qanunvericiliyə edilmiş dəyişikliklərlə bağlı hazırlanmış metodik materiallar

Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsi aşağıdakı sənədlərin hazırlanmasında birbaşa iştirak etmişdir:

Auditor fəaliyyətində haqsız rəqabətin aradan qaldırılması və səmərəliliyin yüksəldilməsi, göstərilən auditor xidmətlərinin keyfiyyətinin artırılması, dempinq hallarının aradan qaldırılması, auditor peşəsinin cəmiyyətdəki nüfuzunun artırılması və auditorların fəaliyyətinin ilkin təməl prinsiplərinin müəyyən edilməsi məqsədilə hazırlanmış “Peşə mənsublarının fəaliyyətinin ilkin təməl prinsipləri” Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2023-cü il 08 fevral tarixli 353/2 nömrəli qərarı ilə təsdiq edilmişdir.

Auditorlar Palatasının 2023-cü il üzrə iş planının 1.2-ci “Auditor fəaliyyəti ilə əlaqədar təlimatlar, tövsiyələr, metodik göstəriş və şərhlərin hazırlanması” bəndinin 1.2.5-ci “Haqsız rəqabətə qarşı mübarizə üzrə komitənin hüquqi əsasları, məqsədi, vəzifə və səlahiyyətləri barədə Təlimatın hazırlanması” yarımbəndinə uyğun olaraq və auditor fəaliyyəti sahəsində haqsız rəqabətin aradan qaldırılması istiqamətində xarici təcrübədən istifadə edilməklə hazırlanmış “Haqsız rəqabətə qarşı mübarizə üzrə komitənin hüquqi əsasları, məqsədi, vəzifə və səlahiyyətləri barədə Təlimat”ı Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2023-cü il 14 mart tarixli 354/1 nömrəli qərarı ilə təsdiq edilmişdir.

“Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikasının Qanununun və Auditorlar Palatası Şurasının “Auditor təşkilatında daxili nəzarətin təşkili və həyata keçirilməsi üzrə Metodik Göstəriş” barədə 2021-ci il 18 iyun tarixli 331/6 nömrəli qərarının tələblərinə riayət olunması məqsədilə təqdim edilmiş “Auditor təşkilatlarında daxili nəzarətin təşkili və həyata keçirilməsinin monitorinqinin nəticəsi barədə Arayış” Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2023-cü il 12 iyun tarixli 357/1 nömrəli qərarı ilə nəzərə alınmışdır.

“Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” 2022-ci il 30 dekabr tarixli 781-VIQ nömrəli Azərbaycan Respublikası Qanununun qəbul edilməsi ilə əlaqədar “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun auditorlar tərəfindən tətbiqinə dair metodik materiallar toplusu”na (2010-2020-ci illər) dəyişikliklərin edilməsi barədə” Auditorlar Palatası sədrinin 2023-cü il 03 mart tarixli 1/8 nömrəli sərəncamının 2.7-ci bəndinə uyğun olaraq hazırlanmış “Auditor təşkilatlarında ƏL/TM-ə qarşı mübarizə sahəsində daxili nəzarət sisteminin səmərəliliyinin müəyyən edilməsi üzrə metodik vəsait” Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2023-cü il 12 iyun tarixli 357/2 nömrəli qərarı ilə bəyənilmişdir.

Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması məqsədilə bu sahədə Türkiyə təcrübəsindən yararlanmaqla hazırlanmış “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınmasına dair tədbirlər haqqında Metodik Göstəriş” Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2023-cü il 12 iyun tarixli 357/3 nömrəli qərarı ilə təsdiq edilmişdir.

Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması məqsədilə bu sahədə Türkiyə təcrübəsindən yararlanmaqla hazırlanmış “Auditor fəaliyyəti ilə məşğul olan şəxslərin cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində öhdəlikləri” Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2023-cü il 12 iyun tarixli 357/4 nömrəli qərarı ilə təsdiq edilmişdir.

“Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” 2022-ci il 30 dekabr tarixli 781-VIQ nömrəli Azərbaycan Respublikası Qanununun qəbul edilməsi ilə əlaqədar “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun auditorlar tərəfindən tətbiqinə dair metodik materiallar toplusu”na (2010-2020-ci illər) dəyişikliklərin edilməsi barədə” Auditorlar Palatası sədrinin 2023-cü il 03 mart tarixli 1/8 nömrəli sərəncamının 2.10-cu bəndinin icrası ilə əlaqədar hazırlanmış “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində risk əsaslı Nəzarət Proqramı" Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2023-cü il 28 sentyabr tarixli 359/3 nömrəli qərarı ilə bəyənilmişdir.

Auditorlar Palatası sədrinin "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun auditorlar tərəfindən tətbiqinə dair metodik materiallar Toplusu"na (2010-2020-ci illər) dəyişikliklər edilməsi barədə" 2023-cü il 03 mart tarixli 1/8 nömrəli sərəncamının 2.9-cu bəndinin icrası ilə əlaqədar hazırlanmış "Auditorlara şübhəli əməliyyatların aşkarlanması indikatorlarının və ƏL/TM tipologiyalarının müəyyən edilməsi və müntəzəm olaraq yenilənməsinə dair Metodik Göstəriş" Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2023-cü il 28 sentyabr tarixli 359/4 nömrəli qərarı ilə bəyənilmişdir.

Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması sahəsində Türkiyə təcrübəsindən yararlanmaqla hazırlanmış "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair tədbirlərin Təqdimatı" Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2023-cü il 28 sentyabr tarixli 359/5 nömrəli qərarı ilə bəyənilmişdir.

Azərbaycan Respublikasının Auditorlar Palatası sədrinin 2023-cü il 06 fevral tarixli 1/6 nömrəli "Azərbaycan Respublikası Auditorlar Palatasının PL/TMM üzrə nəzarət funksiyalarının təkmilləşdirilməsi barədə" sərəncamının 1-ci bəndinin icrası ilə əlaqədar hazırlanmış "ƏL/TMM üzrə qanunvericiliyin pozulmasına dair riskin və onun dərəcələrinin müəyyən edilməsi üçün auditorlar arasında Özünüqiymətləndirmə üzrə sorğu sualları cədvəli" Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2023-cü il 28 sentyabr tarixli 359/6 nömrəli qərarı ilə bəyənilmişdir.

Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması sahəsində Türkiyə təcrübəsindən yararlanmaqla hazırlanmış "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınmasına dair əsas prinsipləri" Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2023-cü il 28 sentyabr tarixli 359/7 nömrəli qərarı ilə təsdiq edilmişdir.

***Beynəlxalq Audit Standartlarının tətbiqi ilə bağlı aşağıdakı işlər görülmüşdür:***

Keyfiyyətin idarə edilməsi üzrə standartlar seriyası: kiçik şirkətlərdə tətbiq etmə BİRİNCİ HİSSƏ: Keyfiyyətin idarə edilməsi üzrə yeni standartlara hazırlaşmağın vaxtıdır.

- Təqdim olunan sənəd İFAC-ın tərcümə strategiyasına müvafiq olaraq peşəkar tərcüməçi tərəfindən  tərcümə edilmiş, Palata sədrinin müvafiq dərkənarına əsasən peşə redaktəsi və korrektə edilmişdir. Standart Palatanın internet səhifəsində yerləşdirilmişdir.

https://audit.gov.az/Upload/Files/2019/IFAC-quality-management-small-firm-implementation-installment-one_AZ.pdf

Keyfiyyətin idarə edilməsi üzrə standartlar seriyası: kiçik şirkətlərdə tətbiqetmə İKİNCİ HİSSƏ: Təfərrüatlı icra planının hazırlanması.

- Təqdim olunan sənəd İFAC-ın tərcümə strategiyasına müvafiq olaraq peşəkar tərcüməçi tərəfindən  tərcümə edilmiş, Palata sədrinin müvafiq dərkənarına əsasən peşə redaktəsi və korrektə edilmişdir. Standart Palatanın internet səhifəsində yerləşdirilmişdir.

https://audit.gov.az/Upload/Files/2019/IFAC-Quality-Management-Series-installment-2-detailed-implementation-plan_AZ.pdf

- 2023-cü ilin 31 oktyabr tarixində "Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) Beynəlxalq Audit və Təsdiqləmə Standartları Şurasının (IAASB) kiçik auditor təşkilatları üçün nəzərdə tutulmuş keyfiyyətin idarə edilməsi standartlarının hazırlanmış nəşrinin 1-ci və 2-ci hissəsinə dair metodik vəsaitlərin tətbiqi" mövzusunda seminar keçirilmişdir.

**Hörmətlə,**

**Auditin hüquqi tənzimlənməsi və**

**dövlət orqanları ilə iş idarəsinin rəisi** **Elnur İbrahimov**